


MİKAYIL
İLHAMLI


## ALLAH BƏNDƏSİ

Yaradıb min cığır, min cür də yolu,
Bəndəsi doğrunu, yanlışı bilmir.
Bəndəsi min dildə danışan dili
Allahın özü də danışa bilmir.

Bəzən eybəcər də gözəldir sanır,
Gözəllik bəzən də gözəldir, bilmir.
Bəzən bir bəndəsi edən xətanı
Allahın özü də düzəldə bilmir.

Var edir, yox edir, sirrini demir,
Odur hökm verən varam, ya yoxam.
Allah bəndəsiylə çörək ha yemir,
Nə özü ac qalır, nə də mən toxam.

Kimə nəyi verir, doğru, ya yanlış,
O bilir, kimlərdən almağa nə var.
Bəndəsən, Allahla dil tapıb danış,
Dünyada Allahsız qalmağa nə var!..

Allah vəzifəsi əziyyətlidir,
O nə sultanlıqdır, nə şahlıq etmək.
Bir Allah bilir ki, nə dəhşətlidir,
Allahsız bəndəyə allahlıq etmək.

## İMADƏDDİN, HƏLƏB QORXUB...

İmadəddin, Hələb qorxub
Sənə "kafir" deyilməkdən!
Qəbir daşın arıqlayıb
Yağış ilə yuyulmaqdan!

Haqsızlığa dözməmisən,
Haqq  yolunu azmamısan,
Yüz illərdi  bezməmisən
Diri-diri soyulmaqdan!

Doyub getmir bərk gedənlər,
Bu dünyanı tərk edənlər...
Bu dünyanı dərk edənlər
Sərxoş olur ayılmaqdan!

İlhamlıyam, mum olmuşam,
Rəndələnib yonulmuşam.
Mən boyda dağ qum olmuşam
Damcı-damcı döyülməkdən!..

## BAĞDA OXUYAN BÜLBÜL

*(İsa Cavadoğlunun və Azaflı Mikayılın "Bülbül" şeirlərinə cavab)*

Bağda oxuyan bülbülün
Bağı-bağçası yox imiş.
Fələk vurduğu düyünü
Kəsən qayçısı yox imiş.

Dili yoxmuş kar olanın,
Nitqi peşəkar olanın.
Azarı şəkər olanın
Bir turş alçası yox imiş.

Qorxuram göylər yıxılar,
Günəş də yanıb yox olar.
Yalan uçduğum yuxular -
Uçan xalçası yox imiş.

Div-Cirtdan dostum, əlbirim,
Suyu saxlamır xəlbirim...
Min cürə gözəl dilbərin
Bir tək vəfası yox imiş...

İlhamlı - özü yalanın,
Ən gerçək sözü yalanın...
Desinlər, sözü qalanın
Bir kitabçası yox imiş!..

## Hayanda durum ki, görəsən məni?!

*(Nəriman Həsənzadənin eyni adlı şeirinə)*

Dedilər, salam de, Vaqif, Vidadi,
Tanıya bildinmi, görəsən, məni?
Vurğun var, Şıxlı var, Hüseyn Arif,
Çətin, o dağlardan görəsən məni.

O ellər böyütdü məni mən kimi,
O güllərdən aldım şeirin rəngini...
İhamım qalıbdır orda, səngimir -
Ver, sellər aparsın Kürə, sən məni !..

Dövlətim cavandır - arzusu çoxdur,
Torpağım zəngindir - ruzisi çoxdur.
Neyləyim, bu xalqın dahisi çoxdur;
Hayanda durum ki, görəsən məni?!

## ANA DİLİ

Burla Xatun Beyrəyinə
layla çaldı bu dildə.
Dədə Qorqud qopuz aldı,
hava çaldı bu dildə.
Divan tutdu Çənlibeldən
paşalara, xanlara,
Qoç Koroğlu nərə çəkdi,
dava saldı bu dildə.

Bu dilin nəğmə qoşan
əkinçisi gözəldir.
Bu dilin ot biçəni,
tütünçüsü gözəldir,
Mənim ana dilimin
vergül, nida, nöqtəsi,
Mənim ana dilimin lüğəti,
nitq hissəsi,
Mənim ana dilimin
şəkilçisi gözəldir.

Bu dildə Ceyrançölün
ceyranları qəşəngdir,
Kəpəz dağın, Şah dağın
dumanları qəşəngdir,
Arpa çayın, Kür çayın
tüğyanları qəşəngdir,
Həsənoğlu babanın
şirin-şəkər qəzəli,
Hökmlü Şah İsmail
fərmanları qəşəngdir.

Heydər Baba bu dildə əmr,
sərəncam verdi,
Azərbaycan adında
dünyaya ünvan verdi.
Ağ atlı şahənşahı
vətən çox gözləmişdi,
Döndü Azərbaycana
şöhrət verdi, şan verdi.

Sən hardasan, Qazan bəy,
yurduna od qoydular?
Tüstülənmə, od almasan,
alışmasan bu dildə,
Bu dil hünər dilidir-
Nəsimini soydular...
Anasından "çiy süd əmən"
danışmasın bu dildə!...

## BAYRON  HAQQINDA BİR BALLADA

Uşaqkən düşünərdim Bayrondan da ucayam
Cavan getdin təəssüf, dahi oldun nə dərdin?
Öz gənclik illərimdə səni yaşlı görərdim,
İndi sən qoca gəncsən, mən  isə gənc qocayam...

Bizdə yola çıxana "Uğur olsun!" deyirlər,
Qışın oğlan çağında ayaq-başım yalınca...
Soruşmuram bir, hara? Yollanıram dalınca-
Mənə sahib çıxırlar  öz yazdığım  şeirlər...